PARADIGMA, No.1, 2025, səh.7-12
https://doi.org/10.30546/30015.2025.1.05

# MİR CƏLAL PAŞAYEVİN HEKAYƏLƏRİNDƏ SATİRİK GÜLÜŞ
## (“Anket Anketov” və “Kərpic məsələsi”)

**M.V. Əhmədova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: madina.ahmadova@au.edu.az

**Xülasə**. Məqalədə Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatında satirik nəsrin tanınmış nümayəndələrindən biri kimi qazandığı nüfuzdan bəhs olunur. Xüsusilə onun “Anket Anketov” və “Kərpic məsələsi” hekayələrində satirik gülüşün təzahür formaları önə çıxarılır. Araşdırmada yazıçının nəsrinə xas olan əsas xüsusiyyətlərdən biri kimi – səmimi yumor, incə satira və istehza ilə yanaşı, gülüş obyektinə çevrilən obrazların daxili dünyasının və ümumilikdə gülüş mədəniyyətimizin bədii ifadəsi diqqət mərkəzinə çəkilir.

**Açar sözlər:** Mir Cəlal, Azərbaycan ədəbiyyatı, hekayə janrı, satirik nəsr, gülüş, istehza, yumor.

### Giriş

Dahi şəxsiyyət Mir Cəlal Mir Əli oğlu Paşayev XX əsr Azərbaycan ədəbiyyatının klassik simalarından biri kimi fərdi üslubu ilə seçilən, kiçik həcmli nəsr janrında yüksək peşəkarlıq nümayiş etdirən görkəmli yazıçılarımızdandır. Onun hekayələrində sadə insanların gündəlik həyatından götürülmüş tipik məqamlar, cəmiyyətin aktual problemləri, satira və yumorla yanaşı, dərin fəlsəfi məzmun da öz əksini tapır. Mir Cəlalın nəsrində dövrün ruhunu tutmaq bacarığı, dəqiq müşahidələr, qəhrəmanların xarakter və daxili dünyasının ustalıqla təqdim olunması, hadisələrin təbii və inandırıcı şəkildə nəql olunması, bədii dilin rəngarəngliyi və obrazlı ifadə tərzi yazıçının fərqli yaradıcılıq dəst-xəttini formalaşdırır. Onun hekayələri həm forma, həm də məzmun baxımından oxucunu inandırma gücünə malikdir və həyati reallıqlarla sıx bağlı olan bədii üslubu ilə seçilir.

Müəllifin mövzu baxımından zəngin hekayələrində həyat təkcə bir istiqamətdə deyil, müxtəlif sahələrdə – əxlaqi-tərbiyəvi dəyərlər, ailə-məişət münasibətləri, gündəlik hadisələr və dərin məzmunlu, ictimai baxımdan əhəmiyyətli mövzular çərçivəsində geniş şəkildə əks olunur [1, 7].

Ümumilikdə Mir Cəlalın hekayə yaradıcılığında gülüş estetikası xüsusi yer tutur və müəllif bu imkanlardan ustalıqla istifadə etmişdir. Sovet ideologiyasının ədəbiyyat üzərində yaratdığı ciddi nəzarət və məhdudiyyətlər fonunda yazıçı əsasən yumoristik və ironik ifadə vasitələrinə üstünlük vermişdir. Onun hekayələrində yumor daha çox incə və islahedici xarakter daşıyır, gizli mənaları ehtiva edən simvolik istehza və kinayə vasitəsilə cəmiyyətin reallıqları bədii şəkildə təqdim olunur. Bu baxımdan Mir Cəlalın yaradıcılığı həlim və düşündürücü gülüşə əsaslanır. Məşhur gülüş sənətçisi Çarli Çaplinin fikrincə, "Yumor həyat gücümüzü artırır və sağlam düşüncə tərzinin qorunmasına yardım edir. Onun sayəsində biz çətinliklərə daha asan dözə bilirik."

Ədibin hekayələrində yığcamlıq və özünəməxsus bir gülüş estetikası hiss olunur ki, bu da ilk növbədə onun fərdi təbiətindən, xarakterindən və həyat tərzindən qaynaqlanır. Yazıçının təqdim etdiyi gülüş, pozitiv enerji ilə yüklənmiş, sevgidən və inamdan məhrum bir dövrün ruhuna qarşı səssiz bir üsyan kimi oxucunun üzünə təbəssüm gətirə bilir. Bu gülüş, bəzən ağrının içindən süzülərək gəlir, oxucunu həm güldürür, həm də dərindən düşündürür.

Ümumiyyətlə, gülüş – hansı dövrə, cəmiyyətə və ya şəraitə aid olmasından asılı olmayaraq – böyük mənəvi güc, iradə və istedad tələb edən nadir bir bacarıqdır. Gülmək və güldürmək, xüsusilə çətin, qaranlıq və təzyiqli zamanlarda, sadəcə bir əyləncə forması deyil, eyni zamanda cəmiyyətin sosial-mənəvi sağlamlığının göstəricisi, daxili azadlığın ifadəsi və şəxsi mövqenin səmimi bədii formasıdır. Gülüş, insanın daxili zənginliyinin, ruh yüksəkliyinin, hadisələrə obyektiv və eyni zamanda incə bir prizma ilə baxmaq bacarığının təcəssümüdür. Bu mənada gülüş həm istedadın, həm də şəxsiyyətin güclü və təsirli bir təzahürü kimi çıxış edir. Özünə və cəmiyyətə tənqidi, lakin sevgi dolu bir baxışla yanaşmaq – yalnız yüksək bədii zövqə və dərin müşahidə qabiliyyətinə malik yaradıcı insanlara xasdır. Belə bir gülüş həm düşündürür, həm də ruhu azad edir, çünki onun kökündə həqiqətə söykənən humanizm dayanır.

Yazıçı hekayələri sadə gülüşlə kifayətlənmir – onun təqdim etdiyi yumoristik-kinayəli gülüş oxucunu həm güldürür, həm də düşündürür. Bu, adi, səthi gülüşdən fərqli olaraq, dərin fəlsəfi mahiyyət daşıyır və insanın daxili dünyasına, cəmiyyətin gerçəklərinə işıq tutmaq gücünə malikdir. Mir Cəlalın yaratdığı gülüş oxucuda sadəcə əyləncə deyil, həm də təfəkkür yaradır, xalq idrakının incəliklərini, məntiqini və zəkasını ifadə edir. Bu baxımdan, onun gülüşü milli düşüncə tərzinin estetik formaya bürünmüş ifadəsidir.

Mir Cəlalın Paşayevin hekayələrində ciddilik və gülüş bir-birinə zidd olmayan, əksinə, bir-birini tamamlayan, bir-birinə paralel olan bədii elementlər kimi çıxış edir. Onun yaradıcılığında bu iki anlayış vəhdət təşkil edir və yazıçının özünəməxsus bədii üslubunun əsas göstəricilərindən birinə çevrilir. Mir Cəlal həm sosial reallıqları, həm də insan psixologiyasını dərindən dərk edərək, təsvir vasitələri və təhkiyə texnikası vasitəsilə bu elementləri harmonik şəkildə birləşdirməyi bacarır. O, psixoloji detalları ustalıqla üzə çıxarır, sosial mühitin fonunda fərdi xarakterləri inandırıcı və canlı şəkildə təqdim edir.

Ədəbiyyatşünasların fikrincə, "Bədii əsər surətlər aləmidir. Bu aləmdə həyat bəzən olduğu kimi, bəzən isə daha dolğun və daha maraqlı şəkildə canlandırılır. Əsərdə yalnız həyatın özü yox, ona sənətkar baxış bucağı, münasibəti də ifadə olunur. Sənət əsəri həyatın sadə surətini deyil, onun sənətkar tərəfindən yenidən yaradılmış formasını təqdim edir" [5, s.236].

Dahi sənətkar Mir Cəlalın satirik hekayələrinə diqqətlə nəzər saldıqda aydın olur ki, o, açıq və sərt satiradan daha çox incə yumora, gizli istehzaya üstünlük verir. Onun hekayələrində gülüş, əsasən, düşündürən, islahedici və simvolik çalarlara malikdir. Bu yumor həm mətnin mənasını, həm də quruluşunda özünü göstərir və oxucunu birbaşa deyil, dolayı yollarla düşünməyə sövq edir. Bu xüsusiyyət təkcə məzmunla məhdudlaşmır – Mir Cəlalın

hekayələrinin adlarında belə mətnaltı mənalar, simvolik ifadələr və gizli gülüş elementləri müşahidə olunur.

“Şaftalı söhbəti”, “İclas qurusu”, “Qoltuq radiosu” kimi hekayələr bunun parlaq nümunələridir. Bu əsərlərin adları artıq oxucunu hazırlayır – burada adi həyat hadisələrinin arxasında cəmiyyətin müəyyən qüsurlarına yönəlmiş tənqid və incə ironiya dayanır. Bu cür bədii üsul yazıçının həm yaradıcı çevikliyini, həm də cəmiyyətə qarşı məsuliyyətli və diqqətli münasibətini nümayiş etdirir. Mir Cəlal üçün yumor təkcə gülüş vasitəsi deyil, həm də maarifləndirici, tərbiyəvi funksiyaya malik bir sənət alətidir.

Ədibin bədii yaradıcılığında gülüş ünsürü, xüsusilə də ilk hekayələrindən etibarən diqqətçəkən və inkişaf edən bir element kimi çıxış edir. Yazıçının komik duyum qabiliyyəti və zərif müşahidə bacarığı zamanla daha da dərinləşərək, incə psixoloji təhlillərlə zənginləşmişdir. Onun "Həkim Cinayətov" və "Anket Anketov" hekayələri, xüsusilə bürokratik idarəçilik sistemindəki nöqsanların, rəsmi münasibətlərdəki formallığın və qeyri-insani yanaşmaların tənqid edilməsi baxımından əhəmiyyətlidir.

"Anket Anketov" hekayəsində müəllif satirik obraz yaratmaqla bürokrat təfəkkürünün ifşasına nail olur. Hamamlar İdarəsinin rəisi vəzifəsinə təyin olunan Anket Anketov öz əməkdaşlarını insan kimi deyil, onların şəxsi iş sənədləri – "liçni delo"ları əsasında qiymətləndirir. O, insanları daxili keyfiyyətlərinə, peşəkarlığına və şəxsiyyətinə görə deyil, arxiv sənədlərindəki detallara əsasən dəyərləndirir və onları "iş qovluqlarının canlı kölgələri" kimi görür. Bu satirik yanaşma cəmiyyətin rəsmi strukturlarında bəzən insan amilinin necə arxa plana keçirildiyini ustalıqla ifşa edir. Hekayənin bir səhnəsində Anket Anketov vəzifəyə başladıqdan sonra bütün hamam müdirlərini toplantıya çağırır və ilk işi onlardan "liçni delo" tələb etmək olur. Onlar “baş üstə” deyərək oturmaq istəyəndə, Anketov buna icazə vermir – bu isə onun özünü vəzifə vasitəsilə "əhəmiyyətli" göstərmək cəhdinin, həm də qeyri-insani münasibət tərzinin simvolik göstəricisi kimi təqdim olunur:

- "Baş üstə olunca, əl üstə olsun, bu saat liçni delolar mənim qabağımda olmalıdır!"
- "Yoldaş Anketov, getsək iclas bəs nə olsun?"
- "Liçni delosuz nə iclas, balam? Mən bilməliyəm kimlərlə iclas eləyirəm, ya yox?" [2, s.338].

Anket Anketovun fəaliyyətində əsasən şəxsi işlər, anketlər, tərcümeyi-hallar, xarakteristikalar, yoxlamalar, şəhadətnamələr, izahatlar və ərizələrlə məşğul olmaq müşahidə olunur. O, bu formal sənədləri qaydasına salmaqla, trestdəki işlərin düzgün işləyəcəyini, nöqsanların aradan qalxacağını düşünürdü. Bu, onun bürokratik idarəetmə sistemindəki məntiqini və insana deyil, sadəcə kağız işlərinə verdiyi önəmi göstərir. Anketov öz işini yalnız sənədlər üzərində qurduğu üçün, hər şeyin "yerli-yerində" olması üçün qovluqları belə sahiblərinin vəziyyətinə görə düzürdü.

Onun qovluqları heç bir etik prinsiplə deyil, sadəcə şəxsi münasibətlərlə sıralanırdı. Acığı gəldiyi və ya narazı olduğu adamların işlərini həmişə ən alt cərgəyə yerləşdirir, xoşladığı şəxslərin sənədlərini isə həmişə ön sırada saxlayırdı. Qovluqların kənarına yazdığı qeydlər də onun idarəetmə tərzini açıq şəkildə göstərirdi:

"Başqa vəzifəyə keçirdim, maaşını əlli manat artırdım, “Yaxşı işlədiyinə görə səni irəli çəkirəm” [3, s.276].

Bu yanaşma Mir Cəlalın satirik və ironik yazı üslubunun bir parçasıdır. Onun hekayələrində insanın sistemə uyğunlaşmağa çalışarkən, öz şəxsiyyətini itirən bir bürokratik mədəniyyətin tənqidi açıq şəkildə ortaya çıxır. Bu yanaşma həm də gülüş və istehzanın gücünü bir daha vurğulayır.

Hekayədə Anketov Hamamlar İdarəsinin rəhbəri olaraq, hər bir şəxsi yalnız onun təqdim etdiyi şəxsi anketlərə əsasən qiymətləndirir və münasibətini bu məlumatlarla formalaşdırır. Bu yanaşma, sovet sisteminin bürokratik və soyuq iş üsulunun tipik bir nümayəndəsidir. Hekayənin sonunda isə, Anketov, Mürsəl Hadıyevin sosial vəziyyətinin şübhəli olduğunu iddia edərək, onunla qarşılaşan hər hansı bir müqaviməti susdurmağa çalışır. Anketov ona bildirir ki, anketinə baxmasına baxmayaraq, əslində heç nə anlamır. Onun yazdıqlarını çox qapalı və anlaşılmaz tapır, xüsusən də “ atam nalbənd olub ” kimi qeydləri şübhə altına alır. Beləliklə, cəmiyyətin müəyyən vəziyyətinə uyğun gəlməyən hər şey, sovet dövründə uyğunlaşmağa çalışan bir qurumun təzyiqinə məruz qalır.

"Bu məsələnin at və öküzlə heç bir əlaqəsi yoxdur," – deyə Anketov istehzalı bir təbəssüm yaratmağa çalışaraq başını tərpətdi. "Məsələ o heyvanların sahiblərindədir. Görək, sənin atan hansı cür heyvanı nallayıb: istismarçı hampa sahibinin, yoxsa fəqir-kasıbın?"

Hadıyev bu söhbətdən gülərək cavab verdi: "Bütün pul verənlər heyvanlarını nallatdırıb."

Anketov, bir az da sərt şəkildə, dedi: "Bəli, burjuaziya dövründə, sənin atanla uyğun gələn zamanlarda, hampanın pulu çox idi, fəqir-kasıbdan isə az."

Hadıyev bunu qəbul edərək, "Bəli, hampa pul qazanmışdı," dedi.

"Deməli, atan o pulu istismarçılardan alıb," – Anketov dedi.

Hadıyev cavab verdi: "Axı nə fərqi var?"

Anketov yenidən fikrini bildirdi: "Doğru deyirsən ki, hampalar daha çox at nallayır."

Hadıyev təsdiq etdi: "Bəli, doğrudur."

Anketov qərarını bildirdi: "Elə mənim üçün də bu kifayətdir. İndi gedə bilərsən."

Hadıyev sonuncu dəfə sözə başladı: "Amma mən başa düşə bilmirəm, niyə bu qədər maraqlanırsınız ki, atamın nalbəndliyi ilə? Əgər nallamaq istəyirsinizsə, buyurun, deyin " [4, s.435].

Beləliklə, dələduz Anketov Hadıyevin valideynlərinin ictimai vəziyyətini "özünə aydınlaşdırmaq" məqsədilə ona on gün müddət verir və xəbərdarlıq edir ki, bu müddət ərzində hər hansı bir irəliləyiş olmazsa, o zaman işinə son veriləcək. Bu proseslər və insanların həm işdən, həm də ictimai həyatdan təcrid edilməsi, həmin dialoq Sovet dövründə, xüsusilə 1937-ci ildəki repressiya mühiti və qorxu atmosferini çox aydın şəkildə əks etdirir. Hekayənin 1937-ci ildə yazılıb çap edilməsi isə bu mənzərənin doğruluğunu bir daha təsdiq edir.

Ədibin satirik üslubda yazdığı digər bir hekayə isə "Kərpic məsələsi"dir. Hekayədə, hər il bir arvad alıb, tez-tez dəyişən Babaxan, həm dövründə, həm də müasir vaxtda aktuallığını qoruyur. Babaxan hər zaman tez bezən biridir; hər həftə ən azı səkkiz, bəzi hallarda isə doqquz yeni arvad alar və bir müddət sonra onlara bir təpik vurub yola salardı. Arvad dəyişdirməyi sevən Babaxanın bu davranışının səbəbi isə zamanla açıqlanır. O, hər dəfə pul sahibi olan bir qadın tapanda, onunla evlənir, var-dövlətini ələ keçirir və sonra lazımsız olduğu halda onu evdən çıxarır. Babaxan bir kooperativdə parça satmağı bacarırdı. Arvad almaqda olduğu kimi, parça satmaqda da çox ustadır. Əvvəlcə malı diqqətlə yoxlayar, sonra isə piştaxtanın altına bir neçə top qoyub, "bazar" malını daha cazibədar etmək üçün gözdən uzaq yerlərdə saxlayardı.

"Bu malı almışıq, axşama bir metr də qalmayacaq. Mənim məsləhətimdir, al, peşman olarsan..." – deyərək, yarımçadralı qadınları aldatmağa davam edirdi.

Alverin ən hərəkətli vaxtında, balacagözlü, burnu böyük, üzündə tüklər olan, çiyni xurcunlu kişi Babaxana yaxınlaşıb salam verərdi. Salamdan sonra isə hər zaman eyni suala cavab verərdi: "Nə var, nə yox?". Amma əslində bu kişi Babaxanla gizli şəkildə əlbir idi. Müştərilər getdikdən sonra, Babaxan piştaxtanın altına gizlədilmiş parçaları ona ötürərdi.

"Kərpic məsələsi" hekayəsində müstəntiq ilə hekayəni danışan şəxs arasındakı dialoq xüsusilə diqqət çəkicidir:

– Çamadanı açıb, əşyalarını götürüb, yerinə kərpic yığmısınızmı?

– ...

– Yığmısınızmı?

– Çamadanı açıb, əşyalarını götürüb, yerinə kərpic yığmamışam.

– Mən səsimi qaldırdım.

– Yoldaş müstəntiq, bu, tamamilə yalan məlumatdır...

Müstəntiq əlini qaldıraraq dedi:

– Hirslənməyin. Cavabınızı bir daha təkrar edin, yazım.

– Çamadanı açıb, əşyalarını götürüb, yerinə kərpic yığmamışam.

– Aha... Deməк, çamadanı açıb, əşyalarını götürüb, yerinə kərpic yığmısınız, eləmi? [2, s.38].

Bu dialoqda, məsuliyyətə cəlb edilən şəxsin nitqində sadəlövhlük, kələfin ucunu tapdığını düşünən müstəntiqin danışığında isə özündən məmnunluq və inam hissi duyulur. Hekayənin mövzusunun məişət həyatından olması, onun gülüş və istehza dolu elementlərlə zəngin olması, hadisələrin təbii axışı ilə birgə insanda müsbət və pozitiv bir mühit yaradır.

**Nəticə.** Professor Mir Cəlal Paşayev yalnız nüfuzlu alim deyil, həm də böyük bir yazıçı və nasir idi. O, həm elmi əsərlərində, həm də hekayə və romanlarında həyatın reallığını, həqiqətini və təbiiliyini ustalıqla canlandırıb. Paşayev, çox vaxt adi və təkrarlanan görünən, lakin diqqətlə seçilmiş faktlar və detallarla dövrün sosial-siyasi, mənəvi-psixoloji mənzərəsini ümumiləşdirmək bacarığına malikdir. Hər bir epizod, oxucunun təsəvvüründə zəngin, aydın və həyati mənzərəni canlandırır.

Mir Cəlal xalq içindən çıxan, bu xalqın həyatını və dərin psixologiyasını anlayan bir sənətkar idi. Ona görə də, o, yalnız bu xalqın məişətini və dərdlərini deyil, həm də onun

tiplərini, onların daxili və xarici ziddiyyətlərini diqqətlə araşdırır və əsərlərində bu cür riyakarlıq, tamahkarlıq, paxıllıq kimi insanın özündəki naqislikləri ifşa etməklə sənətini dərinləşdirirdi. Sənətkar bir çox hekayələrində dövlət işində çalışan bəzi savadsız və məsuliyyətsiz şəxsləri tənqid edir, xalqa həqiqətən xidmət etmək istəməyən bu insanlar haqqında satirik bir yanaşma sərgiləyir.

Mir Cəlal ədəbiyyatımıza zəngin bir irs qoyub getdi. Bu irs, öyrənilməli, nümunə götürülməli və inkişaf etdirilməli çoxsaylı tərəflərə malikdir. Onun əsərlərində dərin realizm və sosial əhəmiyyət daşıyan bədii nümunələr var; xalqın çətinliklərini, məhrumiyyətlərini və aktual məsələlərini əks etdirən satirik hekayələr, oxucunu həm güldürür, həm də düşündürür, nəticədə insanlara ibrət verir. O, heç vaxt ucuz şöhrət ardınca getməyib, xalqına xidmət etmək idealına sadiq qalaraq, təbiətinə uyğun sadəlik və təmkinlə yazıb və yaradıb. O, həm ədəbiyyat tariximizdə, həm də xatirələrdə əbədiləşdi.

## Ədəbiyyat

1. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 səh.
2. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı” 1967,517
3. Mir Cəlal. Əsərləri. IV cildə, III cild. “Gənclik” Bakı,1968,435s
4. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 səh.
5. Orucov H. Mir Cəlal dünyasından sətirlər. “Əbilov, Zeynalov və oğulları” , Bakı, 2006, 401

## SATIRICAL LAUGHTER IN THE STORIES OF MIR JALAL PASHAYEV (“Anket Anketov” and “The Brick matter”)

**M.V. Ahmadova**
Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** The article discusses the reputation of Mir Jalal Pashayev as one of the well-known representatives of satirical prose in Azerbaijani literature. In particular, in his stories “Anket Anketov” and “Kerpic Masary”, the forms of manifestation of satirical laughter are highlighted. The study focuses on one of the main features inherent in the writer’s prose – along with sincere humor, subtle satire and irony, the artistic expression of the inner world of the characters who become objects of laughter and our culture of laughter in general.

**Keywords:** Mir Jalal, Azerbaijani literature, story genre, satirical prose, laughter, irony, humor.